Pərvin Gözəlov




# Naxçıvan xanlığına məxsus üç bayraq

63.3(5Az)
G-86

Pərvin Gözəlov

# Naxçıvan xanlığına məxsus üç bayraq

119859

M.S.Ordubadi adı
Naxçıvan Muxtar Res
KİTABXANASI

Bakı-2016

Bayraqşunaslıq və heraldika üzrə mütəxəssis, tarix üzrə fəlsəfə doktoru ***Pərvin Fəxrəddin oğlu Gözəlov***

**Pərvin Gözəlov, "Naxçıvan xanlığına məxsus üç bayraq".** Bakı, 2016. 80 s.

Nəşr ilə bağlı fikir və təkliflərinizi bu ünvana göndərə bilərsiniz:
parvin.gozalov@box.az

İSBN: 978-9952-8294-2-6

Oxuculara təqdim olunan kitab-albomda Pərvin Gözəlovun elmi-tədqiqatları nəticəsində, xarici muzeylərdə saxlanılan Naxçıvan xanlığına məxsus üç bayraq haqqında tam məlumat verilir. Aşkar edilmiş bayraqlar Naxçıvan xanlığının siyasi-ideoloji sistemi ilə əlaqədardır. Bayraqların təsvirlərini təhlil edərək, belə qənaətə gəlinir ki təqdim olunan üç bayrağın tərtibatı, üzərində əks edilən yazılar, istifadə olunan rəmzlər və rənglər, bayrağa sahib olan Naxçıvan xanlığının siyasi, ideoloji, dini və tarixi mədəni ənənələrini əks etdirir. Naxçıvan xanlığının bayraqlarının üzərində əks olunmuş rəmzləri digər xanlıqların bayraqları ilə çox dəqiqliklə təhlil və müqaisə ediləndə görünür ki, tək Naxçıvan xanlığının bayrağında Azərbaycanın tarixi rəmzləri və ənənələri istifadə edilib. Naxçıvan xanlığının bayraqlarının elmi tədqiqatı nəticəsində belə qənaətə gəlinir ki, Naxçıvan xanlığının bayraqları, tarixi dövlətçilik ənənələrinə və tarixi rəmzlərinə əsaslanaraq tərtib edilmişdi və Naxçıvan xanlığı ideoloji baxımdan möhkəm, tarixi ənənələrə, köklərə bağlı dövlət qurumu kimi fəaliyyət göstərib. Azərbaycanın tarixi bayraqların öyrənilməsi və nəticələrinin təbliği, Azərbaycanın dövlətcilik ənənələrinin dərin koklərinin əyani sübutudur.

Bu istiqamətdə aparılan elmi tədqiqatlar, vətəndaşlar və xüsusən gənclər arasında vətənpərvərlik hissinin güclənməsinə, Azərbaycan barədə doğru olmayan məlumatlar yayanlara, əks təbliğat aparanlara qarşı mübarizəyə və Azərbaycanın qədim dövlətçilik ənənələrinin təbliqinə xidmət edəcəkdir.

*Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.*

© © P.Gözəlov, Naxçıvan xanlığına məxsus üç bayraq, Bakı 2016

© "QƏSR" Mədəni irsi və Tarixi Abidələri Qoruyaq İctimai Birliyi, Bakı, 2016

*Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən anlatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, vətəndaşlıq hissini, azərbaycanlılıq hissini yüksəldərik.*

*Azərbaycan xalqının ümummilli lideri*
*Heydər Əlirza oğlu Əliyev*

**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASININ**

10-cu maddəsinin "Mədəni irsin qorunması və səmərəli idarə edilməsi" bəndində deyilir:

*"...dünya muzeylərində saxlanılan Azərbaycan mənşəli eksponatların tədqiqi və Azərbaycana məxsusluğunun sübutu üçün materialların toplanması da diqqət mərkəzində olacaqdır."*

*Milli mənəvi dəyərlərimiz bizim üçün ən başlıca rol oynayır. Bizim tariximiz, dəyərlərimiz, ənənələrimiz – budur bizi yaşadan. Uzun illər, əsrlər boyu müstəmləkə vəziyyətində yaşayan Azərbaycan insanlarını millət kimi, azərbaycanlı kimi saxlayan da məhz bunlar – bizim ənənələrimiz, tariximiz, dilimiz, mədəniyyətimiz olub və gələcəkdə də belə olacaqdır.*

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin**

**Gənclər Gününün 10-cu ildönümü münasibəti ilə 2 fevral 2007-ci il tarixində ölkənin gənclər təşkilatlarının nümayəndələri ilə görüşündəki yekun nitqindən**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı,*
*"QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq"*
*İctimai Birliyin Sədr müavini,*
*bayraqşunaslıq və geraldika üzrə mütəxəssis,*
*tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlovv*

# Müəllifdən

Dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və təbliği istiqamətində görülən işlər sırasında ən mühüm yerlərdən biri, Azərbaycanın tarixi dövlətçilik ənənələrinin, Azərbaycançılığın tarixi köklərə əsaslanaraq inkişaf etməsini bildirən tarixi dövlət atributlarının öyrənilməsi sahəsində aparılan elmi-tədqiqat işlərinin aparılmasıdır.

Azərbaycanın dövlətçilik tarixinin əsas atributlarından olan, dövlətçilik ənənərinin əyani təcəssüm etdirən, Azərbaycan xanlıqlarının xarici muzeylərdə saxlanılan bayraqların aşkar edilməsi istiqamətində elmi tədqiqatlarımın 2015-ci ildə çox böyük uğurla nəticələnmişdir.

Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində 2015-ci ilin may ayının 10-dan 30-dək şəxsi maliyyə vəsaitimlə elmi ezamiyyətdə olduğum dövrdə, Dövlət Ermitaj Muzeyində və "Artilleriya,

Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyi"nin bayraq fondlarında və arxivlərində apardığım elmi tədqiqatlar nəticəsində, bayraq fondlarında və arxivlərdə Azərbaycanın Naxçıvan xanlığına məxsus olmuş iki bayraq tərəfimdən aşkar edilmişdir.

Bundan əlavə, birinci ezamiyyət dövründə Rusiya Federasiyasında 2013-cü ildə çəkilmiş Hüseyn Xan Naxçıvanskiyə həsr edilmiş "Xan Qusseyn Naxiçevanskiy – Çelovek çesti" sənədli filmini Azərbaycana gətirmişəm. Sənədli filmin surəti tərəfimdən Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət heyətinə 10 iyun 2015-ci ildə təqdim edilmişdir. Naxçıvan Muxtar Respublikasına 16 noyabr 2015-ci il tarixində dəvət olunduğum vaxt, sözü gedən sənədli filmin diqər sürətini isə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etdim. Belə ki, Rusiya Federasiyası alimlərinin elmi tədqiqatlarının nəticəsi olaraq ərsəyə gətirilmiş "Xan Qusseyn Naxiçevanskiy – Çelovek çesti" sənədli filmi, Hüseyn Xan Naxçıvanskinin həyatı və çar rusiyası ordusunda şərəfli xidmətinə həsr edilmişdir.

Əldə etdiyim elmi nəticələrlə kifayyətlənməyərək, bu sahədə elmi tədqiqatlarımı davam etdirmək məqsədi ilə Rusiya Federasiyasının Moskva və Sankt-Peterburq şəhərlərinə 2015-ci ilin dekabr ayı-

nın 15-dən 30-dək elmi ezamiyyətdə oldum. Ezamiyyət dövründə Rusiya Federasiyasının bayraq fondları və arxivlərində elmi tədqiqatlarımı davam etdirdim. Elmi araşdırma nəticəsində "Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyi"nin bayraq fondunda Azərbaycanın Naxçıvan xanlığına məxsus, bu günə kimi məlum olmayan sayca üçüncü bayraq tərəfimdən aşkar edildi.

Beləliklə, tədqiqatlarımın nəticəsi olaraq Naxçıvan xanlığına məxsus üç bayrağın mövcud olması olması müəyyənləşdirildi.

Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində birinci elmi ezamiyyət dövründə aşkar etdiyim Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarının hazırlanmış mulyajlarının 16 noyabr 2015-ci ildə təqdimatı olmuşdur.

Tərəfimdən elmi tədqiqatlarım nəticəsində aşkar edilmiş bayraqlar Naxçıvan xanlığının siyasi-ideoloji və dini dəyərlərini əks etdirir. Bayraqların təsvirlərini təhlil edərək, belə qənaətə gəlirəm ki, təqdim olunan üç bayrağın tərtibatı, üzərində əks edilən yazılar, istifadə olunan rəmzlər və rənqlər, bayrağa sahib olan Naxçıvan xanlığının siyasi, ideoloji, dini və tarixi mədəni ənənələrini əks etdirir. Naxçıvan xanlığının bayraqlarının üzərində əks olunmuş rəmzləri diqər xanlıqların bayraqları ilə

çox dəqiqliklə təhlil və müqaisə edəndə görünür ki, tək Naxçıvan xanlığının bayrağında Azərbaycanın tarixi rəmzləri və ənənələrindən istifadə edilib. Naxçıvan xanlığının bayraqlarının elmi tədqiqatının nəticəsi göstərir ki, Naxçıvan xanlığının bayraqları, tarixi dövlətçilik ənənələrinə və tarixi rəmzlərinə əsaslanaraq tərtib edilmişdir.

Belə ki, Naxçıvan xanlığı ideoloji baxımdan möhkəm, tarixi ənənələrə, köklərə bağlı dövlət qurumu kimi fəaliyyət göstərib. Azərbaycanın tarixi bayraqlarının öyrənilməsi və nəticələrinin təbliği, Azərbaycanın dövlətçilik ənənələrinin dərin koklərinin əyani sübutudur. Gələcəkdə bu istiqamətdə daha çox elmi tədqiqatların aparılması zəruridir. Azərbaycanın tarixi bayraqlarının axtarılmasını və elmi tədqiqatların nəticələri barədə ictimaiyyətə mütamadi olaraq məlumat verilməlidir. Bu sahədə elmi tədqiqatların nəticələrinin təbliği, vətəndaşlar, xüsusən də gənclər arasında vətənpərvərlik hissinin güclənməsinə, Azərbaycan barədə doğru olmayan məlumatlar yayanlara qarşı mubarizəyə və Azərbaycanın qədim dövlətçilik ənənlərinin təbliğinə xidmət edəcəkdir. Qarabağ, Şirvan, Quba və diqər xanlıqların bayraqlarının axtarışı və müəyyən edilməsi istiqamətində tərəfimdən araşdırmalar aparılır.



*Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarının təqdimatı*

# Bu günə kimi məlum olmayan Naxçıvan xanlığına məxsus üç bayraq

Azərbaycanın tarixi dövlətçilik atributlarının öyrənilməsi və tədqiqi dövlətçilik tariximizin dərin tarixi köklərə malik olduğunun əsas sübutlarındandır.

Bu istiqamətdə dövlətimiz tərəfindən çox mühüm və əhəmiyyətli adımlar atılmışdır. Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin 13 mart 1998-ci il tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının tədqiqi və təbliğinin gücləndirilməsi haqqında" xüsusi sərəncamında dövlətçilik atributlarının və tarixi ənənələrinin öyrənilməsi tələb olunurdu. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 noyabr tarixli sərəncamə ilə Bakı şəhərində "Dövlət Bayrağı Meydanı" nın yaradılması və 2009-cu il 17 noyabr tarixli sərəncamı ilə "Dovlət Bayrağı Günü"nün təsis edilməsi barədə Sərəncamların məhs 17 noyabr tarixində imzalanması, simvo-

lik əhəmiyyət kəsb edir. Səbəbi, 1990-ci il 17 noyabr tarixində Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü nəticəsində üç rəngli Azərbaycan bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət rəmzi statusunu almışdır. Dövlət başçısının yuxarıda qeyd olunan sərəncamları dövlətdə vətənpərliyin, Azərbaycançılıq məfkürəsinin və dövlətçilik ənənələrinin təbliğinin, dövlət atributlarına ehtiram hissinin gücləndirilməsinə istiqamətləndirilmişdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" iNKiŞAF KONSEPSIYASININ 10-cu maddəsinin "Mədəni irsin qorunması və səmərəli idarə edilməsi" bəndində deyilir: ***"...dünya muzeylərində saxlanılan Azərbaycan mənşəli eksponatların tədqiqi və Azərbaycana məxsusluğunun sübutu üçün materialların toplanması da diqqət mərkəzində olacaqdır."***

Dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və təbliği istiqamətində görülən işlər sırasında ən mühüm yerlərdən biri, Azərbaycanın tarixi dövlətçilik ənənələrinin, Azərbaycançılığın tarixi köklərə əsaslanaraq inkişaf etməsini bildirən tarixi dövlət

atributlarının öyrənilməsi sahəsində aparılan elmi-tədqiqat işlərinin aparılmasıdır.

Bu istiqamətdə, 2010-cu ildə nəşr edilmiş "Azərbaycan xanlıqlarının bayraqları dövlətçilik tarixinin öyrənilməsində mənbə kimi" monoqrafiyamı qeyd etmək istəyirəm. Sözü gedən elmi əsərdə Azərbaycan xanlıqlarının ölkəmizdə olmayan bayraqlarının aşkar edilməsi istiqamətində elmi tədqiqatların aparılması zəruriyyəti məsələsi öz əksini tapmışdır. Elmi tədqiqatın "Xanlıqlar dövlət qurumları kimi. Xanlıqların dövlətçilik atributları" adlı fəslində, Azərbaycan xanlıqları öz dövlətçilik atributlarına və hakimiyyət rəmzlərinə malik dövlət qurumları kimi göstərilir.

Xanlıqlar öz dövrünün dövlət qurumlarına – dövlətlərinə aid etməyə imkan verən bütün təyinedici xüsusiyyətlərə və elementlərə malik olmuşdular. Belə ki, xanlıqlar dövlət üçün mütləq olan elementlərə malik idilər: siyasi hakimiyyət (siyasi idarəetmə forması və dövlət institututları); dövlət ərazisi (müəyyən olunmuş dövlət institututları fəaliyyət göstərən və dövlətin qanunları işləyən sərhədlər çərçivəsi); iqtisadi potensial (o cümlədən, özünün valyutasına malik olmaq hüququ); silahlı qüvvələr; əhalinin etnik tərkibi (xanlıqlarda do-

minant etnos – türk-azərilər); dil (əsas dil – Azərbaycan (türk) dili); ideologiya – islam; dövlətçilik atributları və hakimiyyət rəmzləri.

Azərbaycan xanlıqlarının aşağıdakı dövlətçilik atributlarından bəhs edilir: taxt, tac, şeşpər, möhür, bayraq (sancaq, ştandart), silah (fəxri parad), sikkələr. Titulların və beynəlxalq münasibətlərdə xanlara müraciət formalarının araşdırılması sübut edir ki, xanlıqlar özlərini – "ali nəsilli" və ya – "ali", xanın oğulları isə özlərini "ali şah" – "yüksək dərəcəli" adlandırırdılar. Beynəlxalq yazışmada xanlara "yüksək dərəcəli", "yüksək dərəcəli xan", "yüksək dərəcəli və çox hörmətli xan" deyə müraciət edirdilər. Ali hakim obrazı hökmdarın şəxsiyyəti və onun hakimiyyət rəmzləri vasitəsilə formalaşırdı. Bu dövrdə xanlıqların dövlətçilik atributları, xanlığın dövlət rəmzlərindən və xanın hakimiyyət atributlarından ibarət idi: 1. Taxt; 2. Tac; 3. Şeşpər; 4. Möhür; 5. Silah (qılınc); 6. Sikkə; 7. Bayraq, ştandart, buncuq və tuğ. Yazılı və illustrativ mənbələrin təhlili, əldə olunmuş nəticələrin muzey materialları ilə tutuşdurulması xanlıqların dövlət rəmzlərini araşdırmağa imkan verir.

Monoqrafiyanın "Azərbaycan xanlıqlarının bayraqları muzey kolleksiyalarında" adlı fəslində

Respublikamızda, həmçinin xarici muzeylərdə qorunan Azərbaycan xanlıqlarının bayraqları, eləcə də "bayraq kompleksi" anlayışına aid bayraq terminləri, bayraqların funksiyaları, tarixi formaları təhlil edilir. Fəsildə Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində qorunan 12 bayraqdan ibarət kolleksiyanın və Gəncə tarix-diyarşünaslıq muzeyində qorunan 1 bayrağın ətraflı və geniş təsviri verilir. Qeyd olunan fəsildə Azərbaycan xanlıqlarının bayraqlarının 1828-ci ildən bu günə kimi olan tarixi araşdırılır.

Elmi araşdırma Hakimiyyətin zahiri tərtibatına və dövlətçiliyin zahiri təzahürünə həsr olunub. Bayraq rəmzi, tarixi və heraldik anlayışlardan biri kimi dövlətçiliyin mühüm atributlarından olmasını təsdiq edir.

Şimali Azərbaycan xanlıqları ləğv edildikdən sonra, onların bayraqları qənimət kimi Rusiya imperiyasının qüdrətini ifadə edən tarixi abidəyə çevrilmişdir. Qafqazdan gələn bayraqlar Sarskoselskiy saray arsenalına təhvil verilmişdi. 1906-cı ilin mart ayında bayraqların bir hissəsi (Cavad xanın ştandartı və Gəncə xanlığının bayraqları, Bakı xanlığının 1 bayrağı, Nuxa-Şəki xanlığının 6 bayrağı, İrəvan uğrunda döyüşdə götürülən 4 bayraq, Lən-

kəran xanlığına hücum zamanı götürülən 2 bayraq Tiflisə Qafqaz Hərbi Tarix Muzeyinə (QHTM) göndərilmişdi. Rusiyaya döyüşsüz birləşən xanlıqların (Qarabağ, Naxçıvan, Şirvan və b.) bayraqları isə QHTM-nə Tiflisə göndərilməmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası Müstəqillik deklarasiyasını qəbul etdi. Dövlətçiliyin bünövrəsini möhkəmləndirmək üçün tarixi dövlətçilik ənənələrinin təbliğinə ehtiyac var idi. QHTM–də olan bayraqların bir hissəsi 1925-ci ildə Azərbaycan dövlət muzeyinə verilmişdir. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyi haqqında Konstitusiya aktı qəbul olundu. Dövlət quruculuğunun əsas məsələlərindən biri dövlət atributarının qəbulu məsələsi idi.

Elmi əsərimin "Azərbaycan xanlıqlarının bayraqları XVIII-XIX əsrin əvvəllərinin Azərbaycan dövlətçilik atributlarından biri" adlı III fəsilində dövlətçilik rəmzləri sırasında bayraqların əhəmiyyəti tədqiq olunur.

Azərbaycan xanlıqlarının bayraqları üzərində olan yazıların mənalarının öyrənilməsində Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında 12 xanlıq bayrağı əsas kimi götürülmüşdür. Bayraqlar üzərində olan yazılar Şərq, müsəlman ənənələrin-

də hazırlanıb və sırf dini xarakterlidirlər. Yazıların bir hissəsi müqəddəs Qurani-Kərimdən götürülüb: 61-ci "Əl-Saf " surəsi,13 ayət; 48-ci "Əl-fəth" surəsi, 2-ci ayət və 7-ci "Əl-Ərəf" surəsi, 180-cı ayət.

Azərbaycanın dövlətçilik tarixinin əsas atributlarından olan, dövlətçilik ənənərinin əyani təcəssüm etdirən, Azərbaycan xanlıqlarının xarici muzeylərdə saxlanılan bayraqların aşkar edilməsi istiqamətində elmi tədqiqatlarımın 2015-ci ildə çox böyük uğurla nəticələnmişdir.

Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində 2015-ci ilin may ayının 10-dan 30-dək şəxsi maliyyə vəsaitimlə elmi ezamiyyətdə olduğum dövrdə, Dövlət Ermitaj Muzeyində və "Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyi"nin bayraq fondlarında və arxivlərində apardığım elmi tədqiqatlar nəticəsində, bayraq fondlarında və arxivlərdə Azərbaycanın Naxcıvan xanlığına məxsus olmuş iki bayraq tərəfimdən aşkar edilmişdir.

Bundan əlavə, birinci ezamiyyətim dövründə Rusiya Federasiyasında 2013-cü ildə çəkilmiş Hüseyn Xan Naxçıvanskiyə həsr edilmiş "Xan Qusseyn Naxiçevanskiy – Çelovek çesti" sənədli filmini Azərbaycana qətirmişəm. Sənədli filmin surəti tə-



119859
M.S.Ordubadi adı
Naxçıvan Muxtar R.
KİTABXANASI



*Naxçıvanın xanlığının döyüş bayrağı Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyinin bayraq fondunda*



*Hüseyn xan (şəkil Xan Qusseyn Naxiçevanski – Çelovek Çesti filmindən)*

rəfimdən Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət heyətinə 10 iyun 2015-ci ildə təqdim edilmişdir. Naxçıvan Muxtar Respublikasına 16 noyabr 2015-ci ildə dəvət olunduğum vaxt, sözü gedən

sənədli filmin diqər sürətini isə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etdim. Rusiya Federasiyası alimlərinin elmi tədqiqatlarının nəticəsi olaraq ərsəyə gətirilmiş "Xan Qusseyn Naxiçevanskiy – Çelovek çesti" sənədli filmi, Hüseyn Xan Naxçıvanskinin həyatı və çar rusiyası ordusunda şərəfli xidmətinə həsr edilib.

Əldə etdiyim elmi nəticələrlə kifayyətlənməyərək, bu sahədə elmi tədqiqatlarımı davam etdirmək məqsədi ilə, Rusiya Federasiyasının Moskva və Sankt-Peterburq şəhərlərinə 2015-ci ilin dekabr ayının 15-dən 30-dək elmi ezamiyyətdə oldum. İkinci elmi ezamiyyətim dövründə Rusiya Federasiyasının bayraq fondları və arxivlərində tədqiqatlarımın nəticəsi olaraq "Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyi"nin bayraq fondunda Azərbaycanın Naxcıvan xanlığına məxsus, bu günə kimi məlum olmayan sayca üçüncü bayraq tərəfimdən aşkar edildi.

Tərəfimdən aşkar olunmuş bayraqlar Azərbaycanın dövlətçilik ənənələrinin, rəmzlərinin tarixi köklərinin əyani sübutudur! Bu istiqamətdə elmi tədqiqatların aparılması, həmçinin Naxçıvan xanlığının bayrağının aşkar edilməsi zəruriyyəti 2010-cu ildə nəşr olunmuş "Azərbaycan xanlıqlarının bay-



*Naxçıvan xanlığının Dövlət bayrağı XVIII-XIX əsr. Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyi*

raqları dövlətçilik tarixinin öyrənilməsində mənbə kimi" adlı manoqrafiyamda qeyd edilmişdir.

Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində birinci elmi ezamiyyət dövründə aşkar etdiyim Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarının hazırlanmış mulyajlarının 16 noyabr 2015-ci ildə təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov aşkar edilmiş bayraqların tarixi əhəmiyyətini qeyd etmiş və mənim Naxçıvan xanlığının bayraqlarının öyrənilməsi istiqamətində elmi fəalliyətimi yüksək qiymətləndirərək "Naxçıvan Muxtar Respublikasının 90 illiyi" yubiley qızıl medalı ilə təltif edildim. Təqdimat mərasimi müxtəlif kütləvi informasiya vasitələrində işıqlandırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətinin tədbir barədə KİV-rə verdiyi məlumatı diqqətinizə çatdırmaq istəyirəm.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərasimdə çıxış edərək demişdir:

"Azərbaycanın Naxçıvan diyarı qədim tarixə malikdir. Burada əsrlər boyu böyük mədəniyyət formalaşmışdır. Biz bu gün Naxçıvanın qədim mədəniyyətindən danışarkən təkcə sənətkarlıq, əkin-

çilik, memarlıq mədəniyyətini yox, bununla yanaşı, zəngin dövlətçilik mədəniyyətini də nəzərdə tuturuq. Bu ərazidə müxtəlif dövrlərdə mükəmməl dövlət idarəçiliyi formaları meydana çıxmışdır. Buna misal olaraq Azərbaycan dövlətçilik tarixində mühüm mərhələ təşkil edən Naxçıvan xanlığını göstərmək olar. Naxçıvan xanlığı böyük bir əraziyə malik idi. Olduqca gərgin bir dövrdə yaranan bu dövlət qurumu Azərbaycanda inzibati idarəçiliyin formalaşmasına öz töhfəsini vermiş, xalqımıza məxsus tarixi ərazini, dili və milli mədəniyyəti qorumağı bacarmışdır."

Qeyd olunmuşdur ki, siyasi tariximizdəki müstəsna xidmətlərinə baxmayaraq, Naxçıvan xanlığının tarixi əvvəllər lazımi səviyyədə öyrənilməmişdir. Azərbaycan tarixinin, eləcə də Naxçıvan xanlığının tarixinin elmi mənbələr əsasında yenidən araşdırılması vacibliyini bir vəzifə kimi irəli sürən ümummilli liderimiz Heydər Əliyev deyirdi: "İndi Azərbaycanın qədim diyarı kimi Naxçıvanın tarixini öyrənmək lazımdır. Mən daha çox istərdim ki, Naxçıvan xanlığının tarixi yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var". 1996-cı ildən Naxçıvan Muxtar Respublikasında ulu öndərimizin müəyyənləşdirdiyi istiqamətlərdə tari-

ximizin yenidən və obyektiv mənbələr əsasında araşdırılmasına başlandı. Həmin il keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumu qarşıya ciddi elmi proqram qoydu. Bu proqram mərhələ-mərhələ icra olundu. Həm ən qədim, həm orta əsrlər, həm də müasir tariximiz yenidən öyrənildi. Bu gün deyə bilərik ki, nəticələr uğurludur. Xüsusilə Naxçıvan xanlığının tarixi üzrə aparılan elmi araşdırmalar öz bəhrəsini vermişdir.

Ali Məclisin Sədri qeyd etmişdir ki, ötən müddət ərzində Naxçıvan xanlığının görkəmli şəxsiyyətləri, hərb xadimləri, əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair kitablar və xəritələr çap olunmuş, rus tədqiqatçılarının Naxçıvan xanlığı barədə kitabları Azərbaycan dilinə tərcümə edilərək ayrıca kitab halında oxucuların ixtiyarına verilmişdir. Yeni tədqiqatlar əsasında "Naxçıvan xanlığı" kitabı çap olunmuş, 2 hissəli "Naxçıvan xanlığı" sənədli filmi hazırlanmışdır. Naxçıvanda on səkkizinci əsrə aid Xan Sarayı əsaslı şəkildə yenidən qurularaq burada muzey yaradılmışdır. Bu dövrdə həyata keçirilən tədbirlərin bir istiqaməti də Naxçıvan xanlığının dövlət rəmzlərinin müəyyən olunması barədə təşəbbüsləri əhatə edirdi. Bununla bağlı bir sıra tədqiqatlar aparılmış, kitablar, elmi tezislər çap

olunmuş, Kəngərli süvari dəstəsinin fəxri və döyüş bayrağı, eləcə də Naxçıvan bəy drujinasının döyüş bayrağı əslinə uyğun şəkildə bərpa edilərək nümayiş olunması üçün Naxçıvan Dövlət Bayraq Muzeyinə verilmişdir.

Ali Məclisin Sədri demişdir: "Rusiyanın Sankt-Peterburq şəhərindəki muzeylərdən tapılan Naxçıvan xanlığının dövlət və döyüş bayraqları bu ərazidə mövcud olmuş dövlətlərin rəmzlərinin müəyyən edilməsi sahəsində həyata keçirilən tədbirlərin davamıdır. Bu tapıntılar Azərbaycanın xanlıqlar dövrü dövlət atributlarının müəyyən edilməsi sahəsində tədqiqatlara mühüm elmi istiqamət verir. Bayrağın üzərindəki səkkizguşəli ulduzların dahi memar Əcəmi Naxçıvani yadigarı olan Möminə xatın türbəsi üzərindəki ulduzların üslubunda əks etdirilməsi, aypara təsviri və günəş rəngi bayrağa sahib olan xanlığın və bu ərazidə yaşayan əhalinin siyasi-ideoloji, tarixi-mənəvi və dini baxışlarını kompleks şəkildə təcəssüm etdirir.

Təsadüfi deyil ki, ilk dəfə dövlət bayrağı üzərində təsvir olunan bu inanclar və dövlətçilik simvolları üstündən yüz il keçəndən sonra ikinci dəfə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağında bir daha öz əksini tapmışdır. Ötən əsrin

əvvəllərində Azərbaycanda Sovet hakimiyyəti bərqərar olunduqdan sonra endirilən üçrəngli, ay-ulduzlu bayrağımızı həmin əsrin sonunda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qaldırmış, ona dövlət müstəqilliyinin simvolu kimi çox yüksək status vermişdir!"

"Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və ali təhsil müəssisələri dövlətçilik tariximizin araşdırılması istiqamətində elmi tədqiqatları bundan sonra da davam etdirməlidirlər. Tariximizin öyrənilməsi ilə bağlı bütün təşəbbüslər bu günə qədər olduğu kimi, bundan sonra da müdafiə olunacaq və lazımi dəstək veriləcəkdir", – deyən Ali Məclisin Sədri Naxçıvan xanlığının bayraqlarının tədqiqi sahəsində fəaliyyətinə və faydalı əməkdaşlığa görə Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi Gözəlov Pərvin Fəxrəddin oğluna öz təşəkkürünü bildirmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Hacı Fəxrəddin Səfərli çıxış edərək demişdir ki, son illər muxtar respublikada əldə olunan inkişaf yolu elm sahəsində də özünü göstərir. Naxçıvan Muxtar Respublikası Ali

Məclisinin Sədri tərəfindən imzalanan müvafiq sərəncamlar elmi tədqiqatların əsas istiqamətlərini müəyyənləşdirmişdir. Nəticədə, 1996-2015-ci illərdə Azərbaycan tarixinin, arxeologiyasının, etnoqrafiyasının, epiqrafikasının müxtəlif problemləri ilə əlaqədar tədqiqatlar aparılmış, müxtəlif kitablar, monoqrafiyalar, məqalələr yazılmış, dissertasiyalar müdafiə edilmişdir. Ötən dövrdə Gəmiqaya abidələri kompleks şəkildə öyrənilmiş, muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılmış, bu abidələr əsasında Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri ensiklopediyası" hazırlanmış, "Naxçıvan tarixi atlası" işıq üzü görmüşdür. Ali Məclis Sədrinin 2012-ci il 6 avqust tarixli Sərəncamına əsasən 3 cildlik "Naxçıvan tarixi"nin hazırlanması da muxtar respublikada tarix elmi sahəsində əldə edilən uğurlar sırasında mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunmuşdur ki, bu gün muxtar respublikada tarixi-mədəni irsin qorunub yaşadılması ilə yanaşı, dövlət rəmzlərinə də hörmət və ehtiramla yanaşılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən noyabrın 17-nin Naxçıvan Muxtar

Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd olunması bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu gün Naxçıvan ərazisində mövcud olmuş qədim dövlətlərin bayraqları elmi şəkildə öyrənilərək üzə çıxarılır. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlovun axtarışları nəticəsində Rusiya muzeylərindən, xüsusilə Sankt-Peterburq şəhərindəki muzeylərdən Naxçıvan xanlığının dövlət və döyüş bayraqları aşkar olunmuşdur. Hacıfəxrəddin Səfərli Naxçıvan Muxtar Respublikasının tarixinin araşdırılmasına və zənginləşdirilməsinə göstərdiyi diqqət və qayğıya görə muxtar respublika ziyalıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov demişdir ki, Naxçıvan xanlığının bayraqlarının 187 il sonra Naxçıvana qaytarılması və təqdimat mərasiminin keçirilməsi tarixi hadisədir. Aşkar olunmuş yeni bayraqlar Azərbaycanın dövlətçilik ənənələrinin, rəmzlərinin tarixi köklərinin əyani sübutudur. Bu bayraqların tapılması Naxçıvan xanlığının tarixinin öyrənilməsinə mühüm töhfələr verəcək, xalqımızın tarixi-mədəni irsinə qarşı aparılan əks-tədqiqat

təşəbbüslərinə son qoyacaqdır. Pərvin Gözəlov apardığı elmi-tədqiqat işlərinə verdiyi yüksək qiymətə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, bu istiqamətdə tədqiqatlarını davam etdirəcəyini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 16 noyabr tarixli Sərəncamı ilə Pərvin Gözəlov Naxçıvan xanlığının bayraqlarının tədqiqi sahəsində fəaliyyətinə görə "Naxçıvan Muxtar Respublikasının 90 illiyi" yubiley qızıl medalı ilə təltif edilmişdir.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarına baxmışlar.

Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov məlumat vermişdir ki, Naxçıvan xanlığının döyüş bayrağı 1812-ci ilin 19-20 oktyabrında Aslandüz döyüşündə general-mayor Pyotr Kotlyarevski tərəfindən qənimət kimi götürülmüşdür. Dövlət bayrağı isə 1827-ci ildə xanlığın işğalı zamanı general Paskeviç tərəfindən qənimət kimi götürülmüş və bu günə qədər müxtəlif xarici muzeylərin fondlarında saxlanılmışdır. Qızılı ipəkdən hazırlanmış və bir-birinə üfüqi şəkildə tikilmiş üç parçadan ibarət olan



*Naxçıvan xanlığının döyüş bayrağı (müttəfiq bayrağı) XVIII-XIX əsr.*

dövlət bayrağının eni 144, uzunluğu 178 santimetrdir. Bayrağın üzərində 6 ədəd səkkizguşəli ulduz və nəbati elementlər əks edilmişdir. Üst zolağın üzərində qızılı saplarla ərəb qrafikası ilə "Qurani-Kərim"in "Səff" surəsindəki "Allah dərgahından kömək, qələbə yaxındır, möminlərə müjdə ver, Ya Məhəmməd" ayəsi həkk edilmişdir.

Döyüş bayrağının uzunluğu 145, eni isə 159 santimetrdir. Moruğu rəngli bayrağın yuxarı sağ tərəfində yerləşən mavi rəngli lövhəcikdə "Bismil-

lah", sol tərəfində "Qurani-Kərim"dən "əl-Fəth", bir qədər aşağıda isə "əl-Bəqərə" surələrinin bir hissəsi yazılmışdır. Ali Məclisin Sədri Naxçıvanın dövlətçilik tarixi ilə bağlı elmi tədqiqatların aparılması zərurətinə diqqəti çəkərək demişdir: Naxçıvan xanlığı Azərbaycan dövlətçilik tarixində mühüm mərhələ təşkil edir. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsini yaradarkən bu məsələni xüsusi qeyd etmiş, Naxçıvan xanlığının tarixinin öyrənilməsi barədə tapşırıqlar vermişdi. Ötən müddətdə bu sahədə elmi-tədqiqat işləri aparılmış, kitablar çap olunmuş, üçcildlik "Naxçıvan tarixi" kitabı hazırlanmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin əməkdaşları, xüsusilə tarixçi alimlər bu sahədəki fəaliyyəti davam etdirməli, Naxçıvan tarixi ilə bağlı elmi araşdırmalar aparılmalı, arxeoloji qazıntılar və qədim əlyazmalar əsasında yeni tarixi faktlar üzə çıxarılmalıdır.

Ali Məclisin Sədri demişdir: Hər bir dövlət tarix üzərində qurulur. Çünki keçmişi olmayan xalqın gələcəyi də yoxdur. Bu gün biz tariximizi tədqiq etməklə yanaşı, həm də onu təbliğ etməli, gənc nəslə öyrətməli, onları əsl vətəndaş

kimi böyütməliyik. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə məktəb-muzey şəbəkəsini təkmilləşdirməli, Naxçıvan tarixi ilə bağlı elektron dərsliklər hazırlanaraq ümumtəhsil məktəblərinin tədris proqramına daxil edilməlidir. Teleradiolar və qəzetlər bu sahədə fəaliyyətlərini gücləndirməli, Naxçıvan tarixinə, dövlətçilik ənənələrinə həsr olunmuş sistemli və təhlilli materiallar hazırlanmalıdır.

2015-ci ilin dekabr ayında Milli Azərbaycan Tarixi Muzeyinə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən Naxçıvan xanlığının dövlət bayrağının mulyajı hədiyyə edilmişdir. Muzeyin ikinci mərtəbəsində avropa zalındakı ekspozisiyada, azərbaycanın orta əsrlərdə dövlətçiliyini əks etdirən eksponatlar sırasında Azərbaycanda XVIII-XIX əsrlərdə mövcüd olmuş xanlıqların bayraqları xüsusi yer tutur. Naxçıvan xanlığının dövlət bayrağı muzeyin ekspozisiyasındakı diqər xanlıqların bayraqları ilə birlikdə nümaiş olunur.

XVIII əsrin II yarısında Azərbaycan dövlətçiliyi özünəməxsus vacib elementlərini qoruyaraq Şərq, İslam və türk sivilizasiyasının ümumi çərçivəsində inkişaf edərək formalaşdı. Nadir şah Əfşarın ölümündən sonra, Naxçıvan xanlığı (1747-1828-ci il-

lərdə) Azərbaycan ərazisində mövcud olmuş dövlət qurumu olaraq, XVIII-ci əsrin ortalarında Azərbaycanın şimalında yaranmış xanlıqlardan biri olmuşdur.

Xanlığın ərazisi Zəngəzur dağlarından Araz çayının vadisinə qədər olan torpaqları əhatə edirdi. İrəvan, Qarabağ və Maku xanlıqları ilə həmsərhəd idi.

Nadir şah Əfşarın ölümündən sonra 1747-ci ildə Kəngərli tayfasının başçısı Heydərqulu xan, şahın naibi Ağahəsəni Naxçıvandan qovdu və özünü xan elan etdi (1747-1764).

Xanlığın paytaxtı Naxçıvan şəhəri idi, əhalisi Azərbaycan dilində danışırdı, dinləri İslam (Şiyəlik) dini idi. Naxçıvan xanlığının iqtisadiyyatı üçün natural təsərrüfat xüsusilə xarakterik idi. Başqa Azərbaycan xanlıqlarında olduğu kimi, burada da həlledici amil feodal istehsal üsulu idi. Naxçıvan xanlığında iqtisadiyyatın əsasını heyvandarlıq və əkinçilik təşkil edirdi; əsas istehsal vasitəsi torpaq idi. Şərqin müsəlman ölkələrində olduğu kimi, Azərbaycan xanlıqlarında da beş növ torpaq mülkiyyəti mövcud idi:

1. Dövlət (xəzinə) torpaqları.

2. Xan ailəsinə məxsus torpaq sahələri (Xalisə)

3. Ayrı-ayrı feodallara – mülkədarlara məxsus torpaq sahələri (Mülk torpaqları)

4. Məscidlərin, pirlərin və bu kimi dini ocaqların ixtiyarında olan torpaqlar (Vəqf torpaqları)

5. Kənd icmasına məxsus torpaq sahələri (Camaat torpağı)

Dağ kəndlərində yaşayan əhalinin əsas məşquliyyəti maldarlıq idi. Düzən yerlərdə isə maldarlıq əhalinin ikinci məşquliyyəti hesab olunurdu. Naxçıvan xanlığında feodal təsərrüfatının iki müxtəlif iqtisadi forması – oturaq əkinçilik və yarımköçəri maldarlıq səciyyəvi idi. Naxçıvan xanlığında əhalinin nisbətən sıxlıq təşkil etdiyi yerləri üç qrupa bölmək olar: birinci qrupa Naxçıvan şəhəri daxil olmaqla Naxçıvan çayının mənsəbinə doğru uzanan ərazi; ikinci qrupa daxil olan ərazi Culfadan başlayaraq, Ordubaddan keçməklə Gilançay boyunca davam edərək, Mehri istiqamətinə qədər gəlib çatırdı. Üçüncü qrupa isə əhalisi nisbətən az olan ərazi – Əlincə çayı boyunca uzanan sahə daxil idi. Naxçıvan xanlığı dövlətə məxsus olan bütün elementlərə sahib idi: siyasi hakimiyyət (siyasi idarəetmə forması); dövlət ərazisi (müəyyən olunmuş ərazidə dövlətin qanunları işləyən sərhədlər çərçivəsi); iqtisadi potensial (o cümlədən, pul

dövriyyəsi hüququ); özünün ordusu; əhalinin etnik tərkibi (xanlıqlarda dominant etnos – azərilər); dil (əsas dil- Azərbaycan dili); ideologiya – islam (Şiəlik); dövlətçilik atributları və hakimiyyət rəmzlərinə malik olmuşlar.

Tarixdən məlum olduğu kimi, rus ordusu 1827-ci ilin may ayında İrəvan qalasını tam muhasirəyə alaraq, general İ.Paskeviçin komandanlığı altında olan hissələr fasilə edərək Naxçıvan xanlığına yürüşə başlamışdılar. Rus qoşunları altı günə Naxçıvana çatdılar və Naxçıvan qalası yaxınlığında Həsən xanın və Nağı xanın komadanlığı altında olan süvari dəstə ilə Knyaz Eristovun komandanlıq etdiyi rus ordusu arasında döyüş baş vermişdir. Rus ordusu qarşı tərəfi məğlub edərək, 1827-ci il iyunun 26-da Naxçıvana daxil olmuşdur.

Elmi tədqiqatlarım nəticəsində aşkar etdiyim ikinci bayraq Naxçıvan xanlığının dövlət bayrağı 1827-ci ildə xanlığın işğalı zaman general İ.Paskeviç tərəfindən qənimət kimi götürülmüşdür və bu günə qədər müxtəlif xarici muzeylərin fondlarında "XVIII-XIX əsr müsəlman bayrağı" kimi saxlanılır.

Aşkar olunmuş Naxçıvan xanlığının bayrağı düzbucaq formada eni 144 sm, uzunluğu 178 smdir. Qızılı ipəkdən hazırlanmış bayraq bir-birinə

üfüqi şəkildə tikilmiş üç parçadan ibarətdir. Bayrağın iki hissəsi bir ölçüdə, biri isə nisbətən ensizdir. Bütün bayraqlarda olduğu kimi, bu bayraqda da sağ tərəfdən bayraq torbacığı tikilib. Bayrağın üzərində ərəb qrafikası ilə Qurani-kərimdən "48-ci əl-Fəth" ayəsinin bir hissəsi və dini şuarlarla yanaşı 6 (altı) səkkizguşəli ulduz və nəbati elementlər əks edilir. Üst zolağın üzərində ərəb qrafikası ilə Qurani-Kərimdən "48-ci əl-Fəth" surəsinin bir hissəsi "Allahdan kömək qələbə yaxındır, Məhəmməddən mömünlərə müjdə" yazısı qızılı saplarla bayrağın üzərinə həkk edilib. Zolağın sol tərəfində digər xanlıq bayraqlarında əks olunmuş zanbaq gülü bayrağın üzərinə parçadan tikilib. Zolağın sağ tərəfində biri digərinin içərisində olaraq, aralarında dairəvi sədd olan iki səkkizguşəli ulduz, qızılı saplarla bayraqda yerləşdirilib. Qeyd etmək lazımdır ki, əks edilmiş ulduz Möminə Xatun türbəsinin üzərindəki ulduzların üslubunda tərtib edilib. Buradakı ulduzların daxilində həndəsi elementlər açıq-aşkar görünür. Nəinki Azərbaycan xanlıqlarının bayraqlarının üzərində, XVIII-XIX əsr Şərq dövlətləri bayraqlarında da buna oxşar elementə rast gəlinməyib. Orta zolaqda açıq qızılı parcadan iki tiyəli tutacağı əjdaha başı ilə yekunlaşan Həzrəti Əlinin qılıncı (şəmşir) təsvir olunub. Qılıncın üst

hissəsində "Əlidən başqa döyüşçü yoxdur" yazısı əks edilir. Yazının qarşısında insan əli formasında (xəmsə), yaxud ələm şəklində açıq qızılı parça tikilib. Qılıncın alt hissəsində isə "Zülfuqardan başqa qılınc yoxdur" yazısı var. Yazının qarşısında və hər iki tərəfində səkkizguşəli ulduz olan, ucları sol tərəfə istiqamətlənən aypara və ulduz, aypara təsvirləri əks olunub. Hər iki yazının axırında isə yuxarıda göstərilən səkkizguşəli ulduz və zanbaq gülü tikilib. Ayparanın sağ tərəfində "Əli" adı iki dəfə güzgü əksi kimi təsvir edilib, yazının üst hissəsinin mərkəzində minarə yerləşdirilib. Əli sözünün solunda "Hüseyn", sağında isə "Həsən" adları yazılıb. Sonuncu zolağın sağ tərəfində iç-içə, arasında dairəvi sədd olan səkkizguşəli sonuncu ulduz tikilmişdir.

Bayrağın ucluğu nizəvari formada, üç hissədən ibarətdir:

1. Nizə formalı ucluq;
2. Orta hissədə, içi boş kürəcik yerləşdirilib;
3. Ağaca taxılan konusvari hissə.

Ucluq və bayraq dirəyi nizəvari formada dəmirdən düzəldilib, ucluğun üzərində iki qotaz bağlanıb. Bayrağın parça hissəsi bayraq ağacına xüsusi

mıxlarla bərkidilib. Bayrağ dirəyinin rənglənməsi müşahidə olunmur, üzərində bir neçə xırda çat görünür.

Bayrağın təsviri təhlil edilərək belə qənaətə gəlinir ki, bayrağın tərtibatı, üzərində əks edilən yazılar, istifadə olunan rəmzlər və rənglər, bayrağa sahib olan Naxçıvan xanlığının siyasi-ideoloji, dini və tarixi-mədəni ənənələrini əks etdirir.

Milli Azərbaycan Tarixi Muzeyində 1924-cü ildə Qavqaz Hərbi-Tarix Muzeyindən qətirilmiş, xanlıq dövrünə aid 12 bayraq qorunub saxlanılır. Muzeyin bayraq kolleksiyasında, "Silahlar və bayraqlar fondu" da Bakı xanlığının 9 bayrağından biri, İrəvan xanlığının 4 bayrağından ikisi, Təbriz xanlığının 1 bayrağı, Şəki xanlığının 6 bayrağından üçü, Xoy xanlığının 1 bayrağı, Gəncə xanlığının 9 bayrağından dördü və bir Gəncə xanlığının bayrağı Gəncə tarix-diyarşunaslıq muzeyində saxlanılır. Xanlıqların bayraqlarının sayının müxtəlif olması, hakimiyyətə qələn növbəti Xan öz bayrağını qəbul edərək, dövlətçilik ənənələrini qorumaq üçün, əvvəlki dövlət bayrağını saxlamışlar. Bayraqlarda olan ərəbdilli yazılar Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı tərəfindən oxunmuşdur. Kolleksiyadakı bayraqların heç birinin üzərində

mənsub olduğu xanlığın adı və ya xanlığa aid olan rəmzi ornament əks olunmamışdır. Misal üçün; Gəncə xanlığının sonuncu xanı olmuş Cavad xanın bayrağının tərtibatında "üç balıq" təsfiri istifadə edilmişdir. Sankt-Peterburq Artileriya Muzeyində aşkar edilmiş bayraq, Naxçıvan xanlığının Dövlət bayrağı kimi istifadə edilmiş və bayrağın yaxşı vəziyyətdə olması onu göstərir ki, bayraq yalnız rəsmi mərasimlərdə istifadə edilmiş və dövlət bayrağına layiqli tərzdə saray daxilində qorunmuşdur.

Elmi tədqiqatlarım nəticəsində aşkar etdiyim Naxçıvan xanlığının sayca üçüncü bayrağı 1827-ci ildə xanlığın işğalı zaman general İ.Paskeviç tərəfindən qənimət kimi götürülmüşdür və Muzeyin fondunda "XVIII-XIX əsr müsəlman bayrağı" kimi saxlanılır.

Aşkar olunmuş Naxçıvan xanlığının üçüncü bayrağı düzbucaq formada eni 92 sm, uzunluğu 192 sm-dir. Bayraq bir-birinə üfüqi şəkildə tikilmiş solğun yaşıl və qirmızı parçalardan ibarətdir. Bayrağın yaşıl hissəsində simvolik günəş formasında qırmızı parçadan səkkiz güşəli ulduz tikilib. Bayrağ qumaşının çoxsaylı zədələrindən, aydın olur ki, sözü gedən bayraq döyüşlərdə istifadə edilib. Bayrağı dəqiqliklə tədqiq etdikdə görünür ki,

üzərində zədələnmiş hissələr bərpa edilərək tikilərək, bir necə yerdən yamanıb. Bayrağın üzərindəki ulduzun bir hissəsi zədəli olduğundan bərba edildikdən sonra ulduz yeddigüşəli qalıb. Bayrağın sol tərəfində şaquli olaraq bayraq torbacığı tikilib.

Şam ağacından hazırlanmış bayraq ağacının dəmirdən düzəldirilmiş nizəvari formada, ortasında içi boş kürəcik olan bayraq ucluğu taxılıb.

Bayraqların üzərindəki rənglər, istifadə edən xalqın tarixi ənənələrini əks etdirir. Yaşıl rəngin çox mənaları var, islamçılıqla yanaşı – bolluq, həyat sevgisi, inam, sevinc, ümüd, azadlığı ifadə edir. Qırmızı rəng isə, muasirliklə yanaşı digər mənaları olub; – məhəbbət, yüksək məqsədlər, qəzəb, igidlik, cəsurluq, düşmənin axan qanını ifadə edib. Naxçıvan ərazisində aypara rəmzli nümunələrə rast qəlinir.

*Bayrağın üzərində aypara, şəbəkəli və adi ulduz rəmzi*



Naxçıvan xanlığının Dövlət bayrağının üzərindəki səkkizguşəli ulduz və aypara kompozisiyasının əks edilməsi və xanlığın üçüncü bayrağının qırmızı və yaşıl rəngli olması, üzərində səkkizguşəli ulduz rəmzinin təsviri subut edir ki, Azərbaycan Respublikasının dövlət bayrağındakı rəmzlər və rənglər, 1918-ci ildə Azərbaycan Xalq Cümhüriyyətindən də qabaq, Azərbaycanın tarixi bayraqlarında milli rəmz kimi istifadə edilib və azərbaycançılığı, milli məfkürəni, dövlətçilik ənənələrini əks etdirən mühüm amil olmuşdur. Azərbaycan xanlıqlarının bayraqlarını müqaisə edərkən, üzərlərindəki yazıların və rəmzlərin təhlili nəticəsində müəyyən olunur ki, Naxçıvan xanlığının bayraqlarından başqa, heç bir xanlığın bayrağının üzərində xanlıqlara mənsubluğunu bildirən rəmz istifadə olunmayıb. Səkkizgüşəli ulduz Azərbaycan ərazisində qədim dövrlərdən istifadə edilmiş və müqəddəs hesab olunmuşdur. Azərbaycanda qədim zamanlardan ulduz əbədilik rəmzi kimi istifadə edilib. Daha da erkən dövrdə yuksək məqsədlər və arzular rəmzi idi. Ulduz istiqamət və xoşbəxtçilik emblemidir. Bayarqların üzərindəki rəmz və emblemlər ya keçmişi, yaxud da xalqın işıqlı qələcəyə, yüksək məqsədlərə olan meylini bildirir. Hər halda hər bir bayraq, ulduzla-



*Naxçıvanda XII əsr Mömünə Xatun türbəsinin girişinin sağ tərəfdə ikinci lövhə üzərində səkkizgüşəli ulduz rəmzi*

rın, xətlərin və başqa simvolların müəmmalı dili ilə, öz xalqının müqəddəratını bildirir.

Möminə Xatun türbəsi – məşhur Azərbaycan memarı Əcəmi Naxçıvaninin şah əsəri və Naxçıvan-Marağa memarlıq məktəbinin ən möhtəşəm abidələrindən biridir. Möminə Xatun türbəsinin naxışlarında bir-birinə toxunulmuş ulduzlar işlənilmişdir. Bu möhtəşəm abidədəki nadir üsulla işlənmiş ul-

duzların, dairəvi abidənin üzərindəki həndəsi ornamentlərin oxşarı yoxdur. Naxçıvan xanlığının Dövlət bayrağının üzərində Əcəmi Naxçıvaninin XII-ci əsr memarlıq abidəsinin üzərində əks edilmiş ulduz rəmzinin istifadə edilməsində, tarixi ənənələrin qorunması və gələcək nəsillərə ötürülməsi məqsədi var. Keçmiş dövrdə böyük memar Əcəmi Naxçıvaninin Mömine Xatun məqbərisinə yerləşdirdiyi ulduz kompozisiyası eynilə Naxçıvan xanlığının bayrağındakının eynidir. Əcəmi memarlıq elementləri Naxçıvan xanlığının Dövlət bayrağının üzərində, mənsub olduğu Naxçıvan xanlığının əsəs əlaməti və möhürüdür. Onu da qeyd etmək lazımdır ki, Naxçıvan xanlığının bayrağında rəmzi şəkildə minarənin də təsvir edilmişdir. "Xəmsə" insan əli rəmzi islamda qəbul edildikdəm sonra, "xəmsə" simvolu islamiyyətə qələbə gətirən Həzrəti Əlinin əli kimi simvolizə edilmişdir. İslam dinində bu rəmz Məhəmməd, Əli, Fatimə, Hüseyn, Həsəni birlikdə simvolizə edilən rəmz kimi qəbul olunmuşdur.

Hesab olunur ki, bütpərəstlik dövründə aypara rəmzi aya sitayiş edilən öl-



*Bayrağın üzərində Momine Xatun türbəsinin üzərindəki ulduzun eynisi*

kələrdə də olmuşdur. Albaniyada uzun müddət mövcud olmuş aya sitayiş və ay məbədi ölkənin əsas kilsələri sayılıb. O cümlədən, Naxçıvan ərazisindən tapılan (636-681 illər) Alban hökmdarı Cavanşirin tunc buxardan tacının üzərində də aypara rəmzi vardır. İslamda aypara ilahiliyin və ali hakimiyyətin əsas simvolu sayılır. Aypara VII əsrin əvvələrində islamın, bütün onun şaxələrinin və təriqətlərinin emblemi olmuşdur. X-XI əsrlərdən isə aypara əksəriyyət müsəlman ölkələrinin dövlət simvolu kimi istifadə olunur. Naxçıvan xanlığının bayrağında ay-ulduz, ayrapa simvolunun istifadə edilməsi də, Azərbaycanın qədim dövlətçilik ənənələrin dərin köklərinin subutudur. Bu həm də, muasir bayrağımızdakı ay-ulduz simvolu, ənənəvi dövlətçilik rəmzləri kimi istifadəsinə, Azərbaycan bayraqlarında həmin rəmzlərin bildiyimizdən daha qədim dövrə aid olmasını subut edir.

Naxçıvan xanlığının Dövlət bayrağında ay-ulduz (aypara) təsvirlərinin olması, Naxçıvan xanlığının bayrağının ipək parçadan tikilməsi, üzərində qızılı saplardan istifadə edilməsi, bu bayrağın iqamətgahda, rəsmi yerlərdə istifadə olunduğunu göstərir. Bayrağın üzərindəki ulduzlar da Naxçıvan xanlığının əhatə etdiyi ərazilərdəki nahiyələri, qə-


Möminə Xatun türbəsi

zaları, əsas tayfaların idarə etməkdə iştirakının göstəricisidir. Aşkar edilmiş Naxçıvan xanlığının üç bayrağı, özündə xanlığın siyasi-ideoloji və dini dəyərlərini əks etdirir.

Bayraqların təsvirlərini təhlil edərkən, belə qənaətə gəlirəm ki, təqdim olunan Naxçıvan xanlığının üç bayrağının tərtibatı, üzərində əks edilən yazılar, istifadə olunan rəmzlər və rənglər, bayrağa sahib olan Naxçıvan xanlığının siyasi, ideoloji, dini və tarixi mədəni ənənələrini əks etdirir.

Naxçıvan xanlığının bayraqlarının elmi tədqiqatının nəticəsi göstərir ki, Naxçıvan xanlığının bayraqları, tarixi dövlətçilik ənənələrinə və tarixi rəmzlərinə əsaslanaraq tərtib edilmişdir. Belə ki, Naxçıvan xanlığı ideoloji baxımdan möhkəm, tarixi ənənələrə, köklərə bağlı dövlət qurumu kimi fəaliyyət göstərib. Azərbaycanın tarixi bayraqlarının öyrənilməsi və nəticələrinin təbliği göstərir ki, Azərbaycan dərin dövlətcilik ənənələrinə malik olmuşdur.

Gələcəkdə bu istiqamətdə daha çox elmi tədqiqatların aparılması zəruridir. Azərbaycanın tarixi bayraqlarının axtarılmasını və elmi tədqiqatların nəticələri barədə ictimaiyyətə mütamadi olaraq məlumat verilməlidir. Bu sahədə elmi tədqiqatların

nəticələrinin təbliği, vətəndaşlar xüsusən gənclər arasında vətənpərvərlik hissinin güclənməsinə, Azərbaycan barədə doğru olmayan məlumatlar yayanlara qarşı mubarizəyə və Azərbaycanın qədim dövlətçilik ənənlərinin təbliğinə xidmət edəcəkdir. Qarabağ, Şirvan, Quba və diqər xanlıqların bayraqlarının axtarışı və müəyyən edilməsi istiqamətində tərəfimdən araşdırmalar aparılır.

# Ədəbiyyat:

1. Naxçıvan Ensiklopediyası. V.Talıbovun redaktəsi ilə, cild I, buraxılış II, Naxçıvan, 2005

2. Azərbaycan Dövlət Kitabı. Dövlətçilik rəmzləri güzgüsündə // Artur Rasizadə, Ramiz Mehdiyev, Fatma Abdullazadənin ümumi redaktəsi ilə, Bakı, 2001, s. 479-481.

3. Şərq qapısı qazeti // Naxçıvan xanlığının dövlər və döyüş bayraqlarının təqdimatı olmuşdur. Sayı: 225(21.377), 17 noyabr 2015-ci il, s. 1-2.

4. Azərbaycanda dövlətçilik və onun rəmzləri. N. Vəlixanlının redaktəsi ilə, Bakı, 2000, 96 s.

5. Azərbaycan Bayraqları, Kataloq, N. Vəlixanlının redaktəsi ilə, Bakı, 2005, 85 s.

6. Azərbaycan Respublikasının Dövlət Rəmzləri. R.Mehdiyevin redaktəsi ilə, Bakı, Çaşıoğlu, 2001, 272 s.

7. Парвин Гёзалов "Знамёна азербайджанских ханств как источник в изучении истории государственности», Баку, 2010, 208 стр.

8. Ф. Нагдалиев, Ханы Нахичеванские в Российской Империи - М.:Новый Аргумент, 2006, — 432 с. : ил. — (Возвращенная история).

9. Вилинбахов Г.В. Знамёна как исторический источник и их место в системе геральдических памятников // Геральдика. Материалы и исследования. Сб. научных трудов. Л., 1983, стр. 96–108.

10. Вилинбахов Г.В. Русские знамёна. Очерки. Санкт-Петербург, Филологический ф-т СПбГУ, 2005, 289 стр.

11. Смирнов К. Русско-персидская война 1803–1813 годов с персидской точки зрения // Известия штаба Кавказского военного округа. 1913. № 36. С. 47.

12. Зайцева Л.П. Вексиллология: настоящее и будущее // Вспомогательные исторические дисциплины: классическое наследие и новые направления. М., 2006, стр. 42–49.

13. Зубов П. Подвиги русских войнов в странах Кавказских с 1800 по 1834, СПб., т. IV, ч. 1, 1835, 365 стр.

14. Похлебкин В.В. Международная символика и эмблематика. М., Международные отношения, 1989, 300 стр.

15. Форти С. Символы, Энциклопедия, «РОСМЕН-ПРЕСС», пер.с англ. Н.Гончарук, М.Почкина. М., 2005, 256 стр.

16. Документальный фильм «Хан Гуссейн Нахичеванский – человек чести», РФ, 2013.

17. Шейнина Е.Я. Энциклопедия символов. М., АСТ; Харьков: Торсинг, 2006, 591 стр.

18. Энциклопедия символов, знаков, эмблем. М., ЛОКИД-МИФ, 2000, 461 стр.

19. Артиллерийский Исторический Музей. Знамённый отдел. Краткий указатель коллекций. Составитель П.И. Белавенец, изд., Арт. Ист. Муз., Л., 1927, 51 стр.

20. Акты собранные Кавказской археографической комиссией. Архив Главного управления наместника Кавказского. Издан под редакцией председателя Комиссии А.Д. Берже. Тт. I–IX, Тифлис,Т. V, с. 596, 597.

21. Акты собранные Кавказской археографической комиссией. Архив Главного управления наместника Кавказского. Издан под редакцией председателя Комиссии А.Д. Берже. Тт. I–IX, Тифлис,Т. VII, с. 625.

22. Акты собранные Кавказской археографической комиссией. Архив Главного управления наместника Кавказского. Издан под редакцией председателя Комиссии А.Д. Берже. Тт. I–IX, Тифлис,Т. IV, с. 946–947 .

23. Акты собранные Кавказской археографической комиссией. Архив Главного управления наместника Кавказского. Издан под редакцией председателя Комиссии А.Д. Берже. Тт. I–IX, Тифлис,Т. III, с. 237.

24. Акты собранные Кавказской археографической комиссией. Архив Главного управления наместника Кавказского. Издан под редакцией председателя Комиссии А.Д. Берже. Тт. I–IX, Тифлис,Т. VI. ч. 2. с. 847-848.

25. Акты собранные Кавказской археографической комиссией. Архив Главного управления наместника Кавказского. Издан под редакцией председателя Комиссии А.Д. Берже. Тт. I–IX, Тифлис, 1866–1881. т. II, стр. 592, д. № 1182.

26. Азербайджанская Демократическая Республика (1918–1920), Законодательные акты (сборник документов), Баку, 1998, 423 стр.

# КАР…

## ВОЕННЫХЪ ДѢЙСТВІЙ ВЪ ЗАКАВКАЗ…

### СЪ ГРАНИЦАМИ ПО ГЮЛИСТАНСКОМУ…




Составлена въ Военно-Историческомъ Отдѣлѣ при Штабѣ Кавказскаго Военнаго Округа Подполковникомъ Томкеевымъ.

Масштабъ:

вер. 40 30 20 10 0 40 80 вер.

...РТА

...КОМЪ КРАѢ СЪ 1809 ПО 1817 ГОДЪ,

...ДОГОВОРУ И БУХАРЕСТСКОМУ МИРУ.





*Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarının təqdimatı*




*Naxçıvan MR Dövlət Bayraq Meydanı*



*Naxçıvanın xanlığının döyüş bayrağı Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyinin bayraq fondunda*



*Naxçıvanın xanlığının döyüş bayrağı Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyinin bayraq fondunda*




*Naxçıvan xanlığının Dövlət bayrağı XVIII əsr*



*Pərvin Gözəlov və Artileriya muzeyin əməkdaşı Naxçıvan xanlığının bayrağı aşkar olundukda, "Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyi"nin bayrağ fondunda. Sankt-Peterburq şəhəri*





*Naxçıvan xanlığının döyüş bayrağı*
*(müttəfiq bayrağı) XVIII əsr.*




*Naxçıvan şəhərində*
*Heydər Əliyev*
*Muzeyinin qarşısında*

*Naxçıvan şəhərində*
*Heydər Əliyev Muzeyi*



Naxçıvan şəhərində
Heydər Əliyev Muzeyi



Naxçıvan şəhərində
Nuh Peyğəmbər türbəsi





*Nahçıvan şəhərində*
*Xan sarayı*

*Nahçıvan şəhərində*
*Mominə Xatun türbəsi*





*Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında Naxçıvan xanlığının dövlət bayrağının mulyajı*



*Naxçıvan ərazisindən tapılan tunc buxardan (636–681 illər) Alban Hökmdarı Cavanşirin tacının üzərində aypara*



*Pərvin Gözəlovun iştirak etdiyi "İN HOC SIGNO VINCES" Beynəlxalq veksilloloji simpozium. Sankt-Peterburq şəhəri 2015-ci il 26-28 may Dövlət Ermitaj muzeyi*





*Pərvin Gözəlovun iştirak etdiyi "İN HOC SIGNO VINCES"*
*Beynəlxalq veksilloloji simpozium.*
*Sankt-Peterburq şəhəri 2015-ci il 26-28 may Dövlət Ermitaj muzeyi*






*Xan Qusseyn Naxiçevanski – Çelovek Çesti filmindən*





*Xan Qusseyn Naxiçevanski – Çelovek Çesti filmindən*



*Pərvin Gözəlov 2015-ci il 13-15 may tarixlərində Sankt-Peterburq şəhərində "Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzey"ində*

*Pərvin Gözəlov 2015-ci il 13-15 may tarixlərində Sankt-Peterburq şəhərində "Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzey"ində keçirilən "Müharibə və silah. Yeni tədqiqatlar və materiallar" VI beynəlxalq elmi-praktiki konfransda*






*Pərvin Gözəlov 2015-ci il 13-15 may tarixlərində Sankt-Peterburq şəhərində "Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzey"ində keçirilən "Müharibə və silah. Yeni tədqiqatlar və materiallar" VI beynəlxalq elmi-praktiki konfransda*





*1941-1945-ci illər Böyük Vətən Muharibəsinin Mərkəzi muzeyi (2015-ci il may, Moskva şəhəri)*



*Rusiyanın Muasir Tarixi Mərkəzi Dövlət Muzeyi (2015-ci il may, Moskva şəhəri)*



*Rusiya Federasiyası, Sankt-Peterburq şəhəri, 2015-ci il 27 may*

*Rusiya Federasiyasının Silahlı Güvvələrin Mərkəzi Muzeyində, faşizm üzərində qələbənin 70 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransda 416-cı Taqanroq atıcı diviziyasının döyüş bayrağına olunmuş məruzə (2015-ci il 26 may, Moskva şəhəri)*







*Pərvin Gözəlov 2015-ci il 17 dekabr tarixində Rusiya Federasiyası Moskva şəhərində Mərkəzi Dövlət Müasir Tarixi Muzeyi*







*Pərvin Gözəlov 2015-ci il 23 dekabr tarixində Rusiya Federasiyası Moskva şəhərində Mərkəzi Dövlət Müasir Tarixi Muzeyində keçirilən 1941-1945-ci illər Böyük Vətən müharibəsi tarixinin öyrənilməsinin əsas istiqamətləri*





Pərvin Gözəlov Fəxrəddin oğlu 1982-ci ildə Bakı şəhərində anadan olmuşdur. P.Gözəlov 1989-cu ildə A.S.Puşkin adına 23 saylı orta məktəbə daxil olaraq, 1999-cu ildə həmin məktəbin məzunu olmuşdur.

O, 2003-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix ixtisası üzrə bakalavr dərəcəsi almış, 2005-ci ildə həmin Universitetin magistr alimlik dərəcəsi haqqında fərqlənmə diplomuna layiq görülmüşdür.

P.Gözəlov 2006-cı ildə Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyi aspiranturasının əyani bölməsinə qəbul olmuş, 2010-cu ildə "Azərbaycan xanlıqlarının bayraqları dövlətçilik tarixinin öyrənilməsində mənbə kimi" adlı dissertasiyasını müvəfəqiyyətlə müdafiyyə edərək Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi haqqında diplom almışdır.

O, 2006-cı ildən Milli Azərbaycan Tarixi Muzeyində əmək fəaliyyətinə başlamış, hal-hazırda "Xarici əlaqələr və sərgilərin təşkili" şöbəsində elmi işçi vəzi-

fəsində işləyir.

P.Gözəlov 2007-ci ildən hal-hazıra kimi "QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq İctimai Birliyinin, idarə heyətinin sədr müavini, 2011-ci ildən 2012-ci ilədək Dövlət Bayrağı Muzeyinin direktoru vəzifəsində işləmişdir. Həmin müddətdə bayrağ gününə həsr edilmiş "Azərbaycan Respublikasının Dövlət Bayrağı uşağ rəsmlərində" adlı sərgisini təşkil etmiş və sərginin kataloqu nəşr olunmuşdur. Həmçinin, "9 noyabr Dövlət Bayraq Günü 2011" ilk poçt markasının buraxılmasına nail olmuş.

O, 50-dan cox Azərbaycanın bayraqşunaslıq, heraldika və hərb tarixinə aid məqalələrin müəllifidir.

Onun 2010-cu ildə "Знамена азербайджанских ханств как источник по изучению истории государственности" adlı monoqrafiyası nəşr edilmişdir.

2012-ci ildə P.Gözəlovun monoqrafiyası Alman Milli Kitabxanası tərəfindən nəşr edilərək, avropanın kitab kataloquna daxil edilmişdir.

Pərvin Gözəlovun "Naxçıvan bayraqları" Bakı-2015 adlı kitabı nəşr edilmişdir. Azərbaycan tarixşünaslığında bu mövzuya həsr olunmuş ilk əsər olan "Naxçıvan bayraqları" kitabında XVIII–XIX əsrin əvvəllərində mövcud olmuş Naxçıvan xanlığının yeni aşkar olunmuş dövlət və döyüş bayraqları haqqında məlumat verilir. Belə ki, müəllifin Rusiya Federasiyasının müxtəlif muzeylərdə apardığı araşdırmalar nəticəsində aşkar olunmuş bayraqlar Azərbaycan dövlətçilik tarixini yeni faktlarla zənginləşdirmişdir. Kitabda Sankt-Peterburq şəhərindəki Dövlət Ermitajı və Artilleriya Muzeyində müəyyən olunmuş bayraqların tarixi, təsvirləri, fotoları ilk dəfə verilir. Müəllif bayraqlar üzərində olan rəmzlər,

onların mənaları haqqında ətraflı məlumat vermişdir.

25-dən çox ölkədə və xaricdə keçirilən beynəlxalq konqreslərdə, simpoziumlarda və konfranslarda elmi məruzələri ilə çıxış edib. Onların sırasında, Polşa Respublikasının Varşava şəhərində 28–30 may 2014-ci il tarixində "Polşa Ordusu" muzeyində keçirilən "Bu bayraq altında qalib gələcəksən, Varşava 2014" adlı veksilloloji elmi konfransında "Milli Azərbaycan Tarixi Muzeyində unikal bayraq kolleksiyası" adlı məruzəsi ilə iştirak etmişdir.

O, 2014-ci il 8–10 oktyabr tarixində "Silah Kolleksiyaları və Hərbi Tarix" Beynəlxalq Muzeylər Komitəsinin Konqresində (International Committee for Museums of Arms and Military History — ICOMAM) məruzə ilə iştirak etmişdir.

P.Gözəlov 2015-ci il 13–15 may tarixlərində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində "Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzey"ində keçirilən "Müharibə və silah. Yeni tədqiqatlar və materiallar" VI beynəlxalq elmi-praktiki konfransda "Azərbaycan xanlıqlarının dövlətçilik rəmzləri"nə həsr olunan elmi məruzə ilə çıxış edib.

Onun 2015-ci il 26 may tarixində, Rusiya Federasiyası Moskva şəhərində Silahlı Qüvvələrin Mərkəzi Muzeyində keçirilən və faşizm üzərində qələbənin 70 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransda "416-cı Taqanroq atıcı diviziyasının döyüş yolu"na həsr olunmuş məruzə ilə çıxışı olmuşdur.

P.Gözəlov 2015-ci il 27–28 may tarixlərində, Rusiya Federasiyası Sankt-Peterburq şəhərində Dövlət Ermitajında keçirilən "İN HOC SIGNO VINCES" Beynəlxalq veksilloloji simpoziumda elmi məruzə ilə çıxış etmişdir.

2015-ci il iyunun 1-dən 3-dək Parisdə Beynəlxalq Muzeylər Şurasının 30-cu Baş Assambleyasının YUNESCO-nun Mənzil-Qərargahında keçirilən iclasında, ICOM Azərbaycan Milli Komitənin üzvü olaraq Pərvin Gözəlov iştirak etmiş və Baş Assambleyanın müzakirələrinə qoşulmuşdur. Baş Assambleyanın illik hesabatında Asiya dövlətləri sırasında Azərbaycan Res publikasının Milli Komitəsinin üzvlərinin aktiv artımı xüsusi olaraq qeyd edilmişdir.

Pərvin Gözəlov 2015-ci il 23 dekabr tarixində Rusiya Federasiyası Moskva şəhərində Mərkəzi Dövlət Müasir Tarixi Muzeyində keçirilən "1941-1945-ci illər Böyük Vətən müharibəsi tarixinin öyrənilməsinin əsas isti qamətləri: yeni mənbələr və onların muzeydə əks olunması" konfransda "1941-1945-ci illər Böyük Vətən müharibəsi illərində 416-cı Taqanroq, Qızıl Bayraq və Suvorov ordenli atıcı diviziyasının və 223-cü Belqrad diviziyasının alaylarının bayraqları" adlı məruzə ilə çıxış etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 16 noyabr tarixli, №0/37 Sərəncamı ilə Pərvin Gözəlov Naxçıvan xanlığının bayraqlarının tədqiqi sahəsində fəaliyyətinə görə "Naxçıvan Muxtar Respublikasının 90 illiyi" yubiley qızıl medalı ilə təltif edilmişdir.

P.Gözəlov Rusiya Federasiyası Mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin aradan qaldırılması üzrə naziri Vladimir Puçkovun 2015-ci il 1 dekabr 472-k əmrinə əsasən, "Rusiya Fövqəladə Hallar Nazirliyi–XXV" medalı ilə təltif edilib.

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ**

Pərvin Fəxrəddin oğlu Gözəlov Naxçıvan xanlığının bayraqlarının tədqiqi sahəsində fəaliyyətinə görə "Naxçıvan Muxtar Respublikasının 90 illiyi" yubiley qızıl medalı ilə təltif edilsin (№ QA 0294).

В. Талыбов

**VASİF TALIBOV**

Naxçıvan şəhəri, 16 noyabr 2015-ci il
№ 0/37




Гезалов

Парвин

Фахраддин оглы

приказом Министерства Российской Федерации по делам гражданской обороны, чрезвычайным ситуациям и ликвидации последствий стихийных бедствий

от « 01 » декабря 2015 г. № 472-К

награжден(а) медалью МЧС России

«XXV ЛЕТ МЧС РОССИИ»

Министр

(должность, воинское или специальное звание)

(подпись лица, вручившего медаль)

В.А. Пучков

М.П.

ДЕПАРТАМЕНТ КАДРОВОЙ ПОЛИТИКИ

**Pərvin Gözəlov**

***Naxçıvan xanlığına məxsus üç bayraq***

*Kitabın üzərində Naxçıvan şəhərində Xan Sarayının şəkili təsvir edilib.*

**Dizayn:** Aleksandra Samuylova

Çapa imzalanmışdır: 05.02.2016.

Format: 70×100 $^{1}/_{16}$.

Ofset çapı. Fiziki çap vərərqi: 5.

Tiraj: 500.



9 789952 829426